# Fərqli Fərdlər

XÜSUSİ QAYĞIYA EHTİYACI OLAN UŞAQLAR KONQRESİ

BAKI, AZƏRBAYCAN
**HEYDƏR ƏLİYEV MƏRKƏZİ**

ABA
TƏTBİQİ DAVRANIŞ ANALİZİ KONFRANSI

*ilə birlikdə*

www.ferqliferdler.az #ferqliferdler

# Fərqli Fərdlər

XÜSUSİ QAYĞIYA EHTİYACI OLAN UŞAQLAR KONQRESİ

15-16 fevral 2020-ci il tarixində Heydər Əliyev Mərkəzində fərqli inkişaf özəllikləri olan uşaqlar üçün autizm mövzusuna həsr edilmiş 2-ci "Fərqli Fərdlər" konqresi uğurla baş tutmuşdur.
Konqres ictimaiyyətin diqqətini maksimum dərəcədə autizm mövzusuna yönəltmək, valideyn, mütəxəssis və pedaqoqlar arasında dialoq qurmaq və dövlət tərəfindən müəyyən edilmiş inklüziv təhsilin genişləndirilməsi təmayülünə dəstək vermək üçün nəzərdə tutulub. Konqresin məruzəçiləri qismində tanınmış beynəlxalq və yerli mütəxəssislər, autizmli uşaqların valideynləri, eləcə də öz həyat və uğur tarixçələrini bölüşən autizmli insanlar çıxış ediblər.



## DƏSTƏK

Azərbaycan Respublikası Təhsil Nazirliyi

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

Heydər Əliyev Fondu

Heydər Əliyev Mərkəzi

İcbari Tibbi Sığorta

KOB Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi

## TƏŞKİLATÇILAR

ceo caspian event organisers

Edutainment.az

## TƏŞKİLATİ DƏSTƏK

BİRGƏ VƏ SAĞLAM İCTİMAİ BİRLİYİ

## BAŞ TƏRƏFDAŞ

bp

## SPONSORLAR

Holcim Azərbaycan

BESTCOMP GROUP

ACE GROUP CONSULTANTS

## TƏRƏFDAŞLAR

RİİB Regional İnkişaf İctimai Birliyi

DOST DAYANIQLI VƏ OPERATİV SOSİAL TƏMİNAT AGENTLİYİ

ARTRIO

MİLLİ HEMATOLOGİYA VƏ TRANSFUZİOLOGİYA MƏRKƏZİ

maxofset printing we are printing your dreams

KONFRANS SERVICES

TAXI 158

İPƏKSU etibarlı mənbədən

AZ EXPO MONTAGE

## TEXNİKİ DƏSTƏK

CREDO

# AÇILIŞ MƏRASİMİ

15 fevral, Heydər Əliyev Mərkəzi

## AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK EDƏNLƏR:



### Anar Kərimov

Əmək və Əhalinin
Sosial Müdafiəsi nazirinin
müavini



### Şükür Eyvazov

*İcbari Tibbi Sığorta üzrə
Dövlət Agentliyinin Regional mərkəzlərlə
iş şöbəsinin müdiri*



### Ceyran Rəhmətullayeva

*Azərbaycan Respublikası
Ailə Qadın və Uşaq Problemləri üzrə
Dövlət Komitəsinin aparat rəhbəri*



### Nadir Adilov

*Azərbaycan Respublikasının
Kiçik və Orta Biznesin İnkişafı Agentliyi,
İdarə Heyətinin sədr müavini*



### Bəxtiyar Aslanbəyli

*BP-nin əlaqələr, xarici işlər,
strategiya və region üzrə
vitse-prezidenti*




***Konqresin açılışı çərçivəsində Azərbaycan Respublikasının əməkdar artisti Tünzaləli Ağayevanın, Murad Arifin və "Səs Azərbaycan" şousunun iştirakçılarının birgə musiqili çıxışı oldu.***

# VİP QONAQLARIN RƏYLƏRİ

"Fərqli Fərdlər" konqresi ölkəmiz üçün ənənəvi tədbirə çevrilir və bu çox vacibdir! Biz hamımız ölkəmizdə yaşayan bir çox insan qruplarının, xüsusən də uşaqların üzləşdikləri problemlərin həlli üzərində çalışırıq. Azərbaycanda gənc nəslin tərbiyəsi və inkişafı istiqamətində böyük işlər görülür. Qeyd edə bilərəm ki, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin xətti ilə hər il təxminən altı yüz min uşaq müxtəlif sosial dəstək alır. Biz bu dəstəyin təkcə reabilitasiya mərkəzləri vasitəsi ilə deyil, həm də daha geniş miqyasda verilməsi üçün çalışırıq. Ötən illərdə nazirlik autizm diaqnozlu uşaqların reabilitasiyası üzrə genişmiqyaslı layihə reallaşdırıb və 800-dən çox uşaq bu layihədən faydalanıb. Bu proqramın reallaşdırılması 2020-2021-ci illərdə də davam etdiriləcək. Hesab edirəm ki, autizm ilə əlaqəsi olan bütün cəmiyyət nümayəndələrinin bir araya gəldiyi belə konqresləri gələcəkdə də keçirmək lazımdır. Bu tədbirlər autizm diaqnozlu insanların sosial inteqrasiyasında və inklüziv cəmiyyətin formalaşdırılmasında vacib rol oynayır. Fərqli inkişaf özəllikləri olan uşaqlara həsr olunmuş konqresin cəmiyyətə verdiyi əsas mesajı isə belə səsləndirmək olar: "Özəllik - cəmiyyətə fayda gətirə bilən dəyərdir!"



**Anar Kərimov**
Əmək və Əhalinin
Sosial Müdafiəsi nazirinin
müavini

"Etiraf etməliyəm ki, mən konqresin belə genişmiqyaslı və maraqlı olacağını gözləmirdim. Təəssüf ki, ötən il mən bu konqresdə iştirak edə bilməmişəm. Tədbir gözəl təşkil edilib və bura autizm diaqnozlu uşaqlarla bağlı məsələlərin həlli ilə məşğul olan yüksək səviyyəli peşəkarlar, eləcə də dövlət strukturlarının nümayəndələri cəlb olunublar. Ən əsası isə burada autizmli uşaqların valideynləri, məktəb müəllimləri və uşaqların özləri iştirak edirlər. Bir sözlə, konqresə sözügedən mövzu ilə əlaqədar olan bütün insanlar qatılıblar. Beləliklə, konqresdə həm dövlət nümayəndələrinin, həm də mütəxəssislərin, eləcə də bu diaqnozla yaşayan sıravi insanların fikirlərini dinləmək mümkün idi".



**Şükür Eyvazov**
İcbari Tibbi Sığorta üzrə
Dövlət Agentliyinin Regional mərkəzlərlə
iş şöbəsinin müdiri



# KONQRESİN ZİYARƏTÇİLƏRİ

**667**
dinləyici

Konqresin
ümumi dinləyicilərinin sayı

## Konqresin dinləyiciləri:

- **Xüsusi qayğıya ehtiyacı olan uşaqların valideynləri**
- **Ekspertlər**
(psixoloqlar, psixoterapevtlər, psixoloji mərkəzlərin rəhbərləri, aparıcı məktəblərin rəhbərləri və müəllimləri)
- **Dövlət qurumlarının nümayəndələri**
- **Media nümayəndələri**

***Antonina Steynberq***

*"Fərqli Fərdlər" konqresinin prodüseri,*
*ASP diaqnozlu şəxslərə dəstək mərkəzinin rəhbəri,*
*konqresin prodüseri, autizmli şəxs,*
*Rusiya*



***Tatyana Morozova***

*Kliniki psixoloq*
*"Açıq ürəklər" fondunun eksperti,*
*uşaqların inkişafı və psixiki sağlamlığı*
*üzrə mütəxəssis,*
*Rusiya*



***Svyatoslav Dovbnya***

*Uşaq nevroloqu,*
*"Açıq ürəklər" fondunun eksperti*
*uşaqların inkişafı və psixiki sağlamlığı*
*üzrə mütəxəssis,*
*Rusiya*



***Arina Lipkina***

*"Konsepsiya"*
*elmi mərkəzinin psixoloqu,*
*autizmli uşağın anası,*
*Rusiya*



***Aleksey Voskov***

*Moskva Dövlət Universitetinin*
*Böyük elmi işçisi və müəllimi,*
*kimya elmləri namizədi,*
*autizmli şəxs,*
*Rusiya*



***Elnarə Ənsari***

*Azərbaycan Respublikası əmək və*
*əhalinin sosial müdafiəsi nazirliyində*
*Beynəlxalq şöbəsinin müdir müavini,*
*autizmli uşağın anası,*
*Azərbaycan*



***Qven Börçel***

*"United Aid For Azerbaijan"*
*təşkilatının təsisçisi,*
*Böyük Britaniya*



Fərqli Fərdlər
XÜSUSİ QAYĞIYA EHTİYACI OLAN UŞAQLAR KONQRESİ

**Konqresin birinci iş gününün proqramı 5 paneldən ibarət olub.**

1. Bilmək və qəbul etmək
2. Fərqli həyat
3. İnklüziya və inteqrasiya
4. Hər kəs üçün əlçatan dünya
5. Ailə. Həyatın başlanğıcı

**Konqresin məruzəçiləri arasında Azərbaycan, Böyük Britaniya, Yunanıstan, İtaliya, Rusiya, ABŞ və Türkiyə də daxil olmaqla, dünyanın 7 ölkəsini təmsil edən mütəxəssislər var idi**



***Sara Borqerdinq***

*Azərbaycanın beynəlxalq məktəbi (TISA),*
*orta məktəbin məsləhətçisi, disleksiya diaqnozlu,*
*autizmli uşağın anası,*
*Böyük Britaniya*



***Nazilə Məhərrəmova***

*11 saylı xüsusi təhsil müəssisəsinin müəllimi,*
*"Ümid var" könüllülər təşkilatının rəhbəri,*
*Azərbaycan*



***İmdat Atamov***

*"İmdad Konsaltinq" şirkətinin təsisçisi*
*və "Eİ kids Baku" proqramının*
*təlimçisinin köməkçisi,*
*Azərbaycan*



***Nigar Köçərli***

*"Əli və Nino" kitab mağazaları*
*şəbəkəsinin rəhbəri,*
*Azərbaycan*



***Elnur Zülfüqarov***

*Heydər Əliyev Beynəlxalq Aeroportunun*
*direktor müavini,*
*Azərbaycan*



***Fidan Muradəliyeva***

*Azərbaycan Milli İncəsənət Muzeyinin*
*arxeoloji saxsı və farfor fondunun müdiri,*
*Azərbaycan*



***Afaq Nəsibova***

*Milli Hematologiya və Transfuziologiya Mərkəzində*
*müalicə işləri üzrə direktor müavini,*
*Azərbaycan*

ABA
TƏTBİQİ DAVRANIŞ ANALİZİ KONFRANSI

16 FEVRAL 2020

# "TƏTBİQİ DAVRANIŞ ANALİZİ" KONFRANSI

16 fevral tarixində "Fərqli Fərdlər" konqresi çərçivəsində "Tətbiqi Davranış Analizi" mövzusunda konfrans keçirilib. ABA terapiya təhsilin davranış texnologiyası və metodlarına əsaslanan, habelə ətraf mühitin davranışa təsir amillərini öyrənən və bununla da onu korrektə etməyə imkan yaradan intensiv təhsil proqramıdır. Konfransın təşkilatçısı qismində "Birgə və Sağlam" İctimai Birliyi çıxış edirdi. "CEO" şirkəti və "Edutainment.az" təhsil strukturu tədbirə təşkilati dəstək göstəriblər.

Konfransın qonaqları arasında autizmli uşaqların valideynləri, eləcə də ekspertlər, pedaqoq və metodistlər, habelə psixoloq və psixoterapevtlər var idi.

## SPİKERLƏR:



**Aytən Eynalova**
"Birgə və Sağlam" İctimai Birliyinin təsisçisi, autizmli uşağın anası, Azərbaycan



**Uilyam Hyuard**
ABŞ-ın Ohayo ştatının dövlət universitetinin fəxri professoru, ABŞ



**Nil Martin**
"BACB" təşkilatının beynəlxalq inkişaf üzrə direktoru, Böyük Britaniya



**Binyamin Birkan**
Biruni Universitetində Professor, BBA şirkətinin icraçi direktoru, Türkiyə



**Angeliki Gena**
Kliniki psixoloq, Professor, Yunanıstan



**Lorenzo Todone**
"SIACSA" təşkilatının Vitse-prezidenti, BCBA, M.S.ED klinik mərkəzinin direktoru, İtaliya



**Canet Tvayman**
Fəlsəfə doktoru, Təlim üzrə rəhbər, BCBA, LBA, ABŞ



**Yekaterina Jestkova**
"Bir addım irəli" ABA layihəsinin rəhbəri, BCBA kateqoriyalı analitiklər kursunun müəllifi və pedaqoq, Rusiya

# SPİKERLƏRİN RƏYLƏRİ

*"Mən "Fərqli Fərdlər" konqresində ikinci dəfə - birinci dəfə məruzəçi qismində, indi isə moderator kimi - iştirak edirəm. Hesab edirəm ki, belə tədbirlər cəmiyyətin autizm xüsusunda geniş məlumatlandırılmasına və stereotip və miflərin aradan qaldırılmasına kömək edir, autizm diaqnozlu insanların özəllikləri, onlarla ünsiyyət qaydaları haqqında bilgi verir. Cəmiyyət və autizmli insanlar belə tədbirlər vasitəsi ilə bir-birilərinə daha da yaxın olurlar. Bu, hər kəs üçün çox vacibdir, belə ki, hər bir autizm diaqnozlu insan cəmiyyətin üzvü olmağa və öz imkanlarını reallaşdırmağa çalışır. Dünyanın istənilən ölkəsində, istənilən etnos və hər yaş kateqoriya-sından olan insanlar arasında bərabər şəkildə paylanmış təxminən 1% autizmli insan var. "Fərqli Fərdlər" konqresi autizmin mövcudluğu, belə insanların dövlət qayğısından məhrum olmadığı barədə cəmiyyətə verilən xüsusi mesajdır və bu diaqnozla necə yaşamaq xüsusunda fikir mübadiləsidir. Konqres cəmiyyətə autizmli insanların özəlliklərini öyrənməyə imkan verir, tolerantlığı artırır və cəmiyyətin daha da humanist olmasına köməklik göstərir".*



**Antonina Steynberq,**
konqresin prodüseri,
ASP diaqnozlu uşaqlara dəstək mərkəzinin rəhbəri,
autizmli şəxs

*"Fərqli Fərdlər" konqresi problemin müzakirəsi ilə yanaşı, onun həll variantlarının da təklif edildiyi platformadır. Qeyd etmək istəyirəm ki, biz təkcə belə genişmiqyaslı tədbirlərin keçirilməsi ilə məhdudlaşmamalıyıq - cəmiyyətə mətbuat, televiziya, internet və sosial şəbəkələr vasitəsi ilə autizmli insanların mövcudluğu barədə daim məlumat verilməlidir. Adi vətəndaşlar isə belə insanlara necə reaksiya vermək, onlarla ünsiyyət qurmaq və gündəlik həyatda birgə yaşamaq baxımından hazırlıqlı olmalı-dırlar. Autizm diaqnozlu uşaqların valideynlərini bu sahədəki yeni araşdır-malar, reallaşdırılan dövlət layihə və proqramları, eləcə də sosial aksiya və tədbirlər barədə məlumatlandırmaq çox vacibdir. Cəmiyyət problem barədə nə qədər çox məlumatlı olarsa, cəmiyyətdə autizmin hamımızın birgə yaşamalı olduğumuz reallıq olması barədə bir o qədər tez anlayış yaranar. Düşünürəm ki, "Fərqli Fərdlər" konqresi cəmiyyətin məlumatlandırılması istiqamətində atılmış vacib addımdır, lakin biz əldə etdiyimiz nailiyyətlərlə qane olmamalıyıq".*



**Arina Lipkina,**
"Konsepsiya" elmi mərkəzinin psixoloqu,
autizimli uşağın valideyni

# SPİKERLƏRİN RƏYLƏRİ

*“Təəssüratlarım olduqca xoşdur - konqres möhtəşəm təşkil olunub, Heydər Əliyev Mərkəzi unikal məkandır, təşkilatçılığa söz ola bilməz, qəbul və dəvət edilmiş yüksək qonaqların səviyyəsi isə yüksəkdir. Xüsusi qayğıya ehtiyacı olan uşaqlara həsr olunmuş konqres autizm kimi həyatın vacib aspektinin anlaşılması baxımından ümumilikdə Azərbaycan cəmiyyətinin inkişafı naminə atılan mühüm addımdır”.*



**Svyatoslav Dovbnya,**
Uşaq nevroloqu,
“Açıq ürəklər” fondunun eksperti,
uşaqların inkişafı və
psixi sağlamlığı üzrə mütəxəssis

“Düşünürəm ki, bu konqresin cəmiyyətə verdiyi ən vacib mesaj autizm yaratdığı problem qədər əsaslı ümid və optimizmdir - burada sadəcə ümid yox, həm də uşağın gündəlik təcrübəsini, eləcə də ev və cəmiyyətdəki mühiti təşkil etmək və digər uşaqlar, yaxınlar və əzizlərlə qarşılıqlı əlaqə yaratmaq kimi elmi dəlillərə əsaslanan ümid var. Bundan başqa, uşağın yeni bacarıqlara yiyələnə bilməsi, öz müstəqilliyini və nəticə etibarilə də xoşbəxtliyini artırması üçün bu mühitin uşağa dəstək olması, eləcə də məktəbdəki mühit çox vacibdir”.



**Uilyam Hyuard,**
Ohayo Dövlət Universitetinin
fəxri professoru

# KONQRES KÖNÜLLƏRİ

- Bu il “Fərqli Fərdlər” konqresinə dəstək verən strukturların sırasına Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılmış “Regional İnkişaf” İctimai Birliyi də qatılıb.

  Konqres əsnasında sözügedən birlik digər beynəlxalq tədbirlərdə də yararlana biləcəkləri müəyyən bilik, dəyərli təcrübə və bacarıqlar əldə ediblər.

  Bütün könüllülər konqresin keçirilməsində göstərdikləri köməkliyə görə konqres təşkilatçılarından təşəkkür sertifikatı alıblar.

Fərqli Fərdlər
XÜSUSİ QAYĞIYA EHTİYACI OLAN UŞAQLAR KONQRESİ






















# ƏLVERİŞLİ MÜHİT

Konqres zamanı xüsusi qayğıya ehtiyacı olan insanlar üçün əlverişli şərait yaratmaq məqsədi ilə aşağıdakılar həyata keçirilmişdir:

- **Xüsusi qayğıya ehtiyacı olan şəxslər üçün istirahət zonası**
- **Uşaq zonası**
- **Xüsusi naviqasiya**
- **Xüsusi qayğıya ehtiyacı olan şəxslər üçün ayrılmış özəl keçid xətti** (qeydiyyat, kofe-breyk və nahar zamanı)
- **Xüsusi qayğıya ehtiyacı olan şəxslər üçün davamlı qidalanma**
- **Xüsusi qayğıya ehtiyacı olan şəxslər üçün özəl identifikasiya elementləri**
- **İlk paneldə eşitmə məhdudiyyətli şəxslər üçün işarə dili**
- **Xüsusi qayğıya ehtiyacı olan şəxslər üçün müşayiət**

# XÜSUSİ QAYĞIYA EHTİYACI OLAN UŞAQLARIN ÇIXIŞLARI

Konqresin hər paneli xüsusi qayğıya ehtiyacı olan uşaqların və yaradıcılıq kollektivlərinin iştirak etdiyi tamaşa ilə başlayıb.




İradə Aslanovanın rəhbərliyi ilə autizmli Aişə Məmmədlinin ssenarisi əsasında uşaq teatr qrupunun iştirakı ilə “Zaman maşını” uşaq tamaşasından bir parça nümayiş etdirilib.




11 saylı xüsusi məktəbin şagirdləri isə vals rəqsi ilə çıxış ediblər.



Konfransın açılışı “Birgə və Sağlam” xorunun ifası ilə müşayiət olunub.



Konqres öz işini autizmə həsr olunmuş uşaq rəqs qrupunun ifasında rəqs ilə yekunlaşdırıb.

# “WORKSHOP” ZONASI / SƏRGİ










Konqres çərçivəsində tərəfdaş və sponsorların iştirak ilə sərgi keçirilib.
Bu imkan şirkətlərin məhsul və xidmətlərinin təşviqi üzrə qarşıya qoyulmuş məqsədlərə maksimum nail olmaq üçün yaradılıb. Konqresin iştirakçı və ziyarətçiləri konqres əsnasında xidmət və məhsulların təklif olunduğu çoxsaylı hədəf auditoriya idi.







Ötən il keçirilmiş konqresdən sonra sosial və təhsil məsələləri ilə əlaqədar daxil olan çoxsaylı istəkləri nəzərə alaraq, bu il Azərbaycan Respublikası Təhsil Nazirliyi və Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin DOST Agentliyi konqresdə stendlər ilə çıxış edib və burada agentliyin nümayəndələri iştirakçıların bütün suallarını cavablandırıblar.

# ZİYARƏTÇİLƏRİN RƏYLƏRİ

*"Çox gözəl təşkilatçılıq, mehriban münasibət,*
*peşəkar insanların öz təcrübələrini bölüşməsi.*
*Bir sözlə MÜKƏMMƏL!*
*Hər il nümunəvi fəaliyyətinizlə seçilirsiniz,*
*"FƏRQLİ FƏRDLƏR" KONQRESİ!"*

**Gülşən Eminova**



*"Fərqli inkişaf özəllikləri olan insanlara həsr olunmuş Beynəlxalq "Fərqli Fərdlər" konqresində bütün məsələlər dəqiqliklə ehtiva olunub. Mən tədbirdən çox razı qaldım və təşkilatçılara, eləcə də xarici və yerli mütəxəssislərə, xüsusən də bütün sponsorlara öz təşəkkürümü bildirirəm.*
*Burada çoxşaylı məlumatlar mövcuddur".*

**İradə Cəbrayılova**



*"Çox gözəl, çox bəyəndim. Təşəkkür edirəm.*
*Hər şey əla idi . Sara Borqerdinq çıxışında riyaziyyatı çətinliklə öyrəndiyini və öyrənmək üçün şəkillərdən istifadə etdiyini dedi. Hal hazırda, mən qızımla dərsləri şəkillərlə öyrənirik. Təşəkkürlər"*

**Könül Mustafazadə**



Fərqli Fərdlər

XÜSUSİ QAYĞIYA EHTİYACI OLAN UŞAQLAR KONQRESİ

ABA TƏTBİQİ DAVRANIŞ ANALİZİ KONFRANSI

ilə birlikdə

BAKI, AZƏRBAYCAN

# Tezliklə görüşənədək!

***Tərəfdaşlıq və əməkdaşlıq məsələləri ilə əlaqədar məsul şəxsə müraciət etməyiniz xahiş olunur:***


**İrina Babayeva**
Layihə rəhbəri
Caspian Event Organisers LLC

Tel. : +994 12 404 1000(office)
: +994 12 404 8973(direct)
Mob. : +994 55 400 0578
E-mail : congress@ceo.az


**www.ferqliferdler.az** **#ferqliferdler**